**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏRZAQ BAZRININ YERLİ KƏND TƏSƏRRÜFATI MƏHSULLARI İLƏ TƏMİNATININ YAXŞILAŞDIRILMASI

İxtisas: **5312.01 – Sahə iqtisadiyyatı**
Elm sahəsi: **İqtisad elmləri**
İddiaçı: **Vüsal Yaqub oğlu Əıifov**

Fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə – 2022**

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Məhərrəm Cəlal oğlu Hüseynov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

iqtisad elmləri namizədi, dosent
**Nüşabə Aslan qızı Hacıyeva**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Rəna Ramazan qızı Modinova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, i.e.d., professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: ____________ Əməkdar kənd təsərrüfatı işçisi, iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Ərzaq bazarı əsasən kənd təsərrüfatı məhsulları istehsalçıları və istehlakçılarının iqtisadi maraqlarının əlaqələndirilməsini təmin edən vacib bir mexanizm kimi fəaliyyət göstərir. Bazar mexanizmi cəmiyyətdəki bölgü və mübadilə münasibətlərinin effektivliyini, ölkənin ərzaq təhlükəsizliyinin zəruri səviyyəsini və ərzaq müstəqilliyini tam təmin edə bilmir. Ona görə ərzaq bazarının səmərəli fəaliyyəti və inkişafı üçün müəyyən institusional münasibətlərin qurulması zərurətə çevrilir. Ərzaq ehtiyatları sisteminin bazar iqtisadiyyatı şərtlərinə uyğun formalaşdırılması prosesi ərzaq bazarının ayrı-ayrı seqmentlərinin inkişafında, rəqabət mühitinin yaranmasında, inhisarçılığın aradan qaldırılmasında xüsusi rol oynayır. Bu proses eyni zamanda vasitəçi strukturların rolunun azalması, kənd təsərrüfatı istehsalçılarının məhsullarının satışındakı çətinliklərin aradan qalxması, müxtəlif səviyyələrdə bazar iştirakçıları arasında qarşılıqlı münasibətlərin qeyri-müəyyənliyinin yumşalması və əlavə xərclərin azalması ilə müşayiət olunur. Ərzaq bazarının fəaliyyətinin qeyri-səmərəliliyi və yaranan digər pro blemlər isə bütövlükdə ölkənin ərzaq təhlükəsizliyi üçün risklərin yaranmasına gətirib çıxarır.

Beləliklə, ərzaq bazarının kənd təsərrüfatı məhsulları ilə təmin olunmasında səmərəli iqtisadi və institusional münasibətlər sisteminin formalaşması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan dövlət tərəfindən həyata keçirilən tədbirlər əhəmiyyətliliyi ilə özünü göstərir. Belə ki, "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı məhz *"məhsulun istehsalçıdan istehlakçıya çatdırılması mərhələsində mövcud maneələrin aradan qaldırılması, ərzaq bazarında süni qiymət artımının qarşısının alınması, kənd təsərrüfatı və ərzaq məhsullarının qəbulu üzrə ixtisaslaşmış terminalların və onların saxlanılması üçün anbarların yaradılması, həmin məhsulların daşınmasına xidmət edən nəqliyyat infrastrukturunun təşkili, xüsusi ərzaq mağazaları şəbəkəsinin genişləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi"* tədbirlərini nəzərdə tutur. "Azərbaycan Respublikasında kənd təsərrüfatı

məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" kənd təsərrüfatında "*dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və risklərin təhlili yanaşmasına əsaslanan qida təhlükəsizliyi sisteminin formalaşdırılması*", həmçinin "*kənd təsərrüfatı məhsulları üzrə bazarın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi"* istiqamətlərini ehtiva edir. "Azərbaycan Respublikası regionlarının 2019-2023-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda *"mühüm növ ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi","ekoloji təmiz məhsul istehsalının artırılması"vəzifələrinin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.* "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə görə *"iqtisadiyyatı davamlı və yüksək templərlə artırmaqla ölkədə adambaşına düşən milli gəlirin yüksək səviyyəsinə"* nail olmaq olar.

Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ərazilərimizin işğaldan azad edilməsi ərzaq bazarının təminatı məsələsini daha da aktuallaşdırır. Nəzərə alsaq ki, həmin ərazilər kənd təsərrüfatı məhsulları istehsalı üçün mühüm potensiala malikdir, bu amiln ərzaq təhlükəsizliyində nə qədər əhəmiyyət kəsb etdiyini qeyd edə bilərik. Göstərilənlər və ərzaq bazarında yerli kənd təsərrüfatı məhsullarının üstünlük təşkil etməsi dissertasiya mövzusunun aktuallığını təsdiq edir.

Ərzaq bazarının inkişafı və kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi problemlərinin tədqiqinin nəzəri, metodoloji və tətbiqi aspektləri iqtisadçıların daim diqqətində olan məsələ kimi özünü göstərir. Bu istiqamətdə respublikanın iqtisadı alimləri Z.Ə.Səmədzadə [58], E.A.Quliyev [53,54,55], İ.H.Alıyev [14,15,16], B.X.Ataşov [17,18,19], İ.H.İbrahimov [39,40,41,42], S.V.Salahov[60], A.A.Qurbanzadə [57], M.C.Hüseynov [37], V.H.Abbasov [11], A.F.Abbasov [12], R.Ə.Balayev [21] və s. geniş elmi tədqiqatlar aparmışlar.

Ərzaq bazarının tədqiqi məsələlərində xarici iqtisadçı alimlərindən əsərlərində rast gəlinir. Onlardan A.Sidoroviç, V.Klyukaç, M.Vlasov, V.Morqunov, L.Qrişayeva, E.Borisov, A.Smit, A.Marşall, K. Mokkonnell, S.Bryu, P.Samuelson, D.Rikardo, M.Porter, C.Mill, M.Friedman, D.Klark, F.Kotler və başqalarını qeyd etmək olar.

**Tədqiqatın obyekti və predmeti**: Tədqiqat obyekti ərzaq məhsulları bazarı və ölkənin kənd təsərrüfatı sistemi seçilmişdir.

Ərzaq məhsulları bazarının inkişaf etdirilməsi, onun səmərəli fəaliyyəti və yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunması olunması istiqamətində olan münasibətlər tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri**: Tədqiqatın məqsədi müasir iqtisadiyyatda ərzaq bazarının formalaşması xüsusiyyətlərini və şərtlərini, ərzaq təhlükəsizliyindəki rolunu və yerli kənd təsərrüfatı məhsulları ilə təminatının əsas istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir. Qarşıya qoyulmuş hədəfə uyğun olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- ərzaq bazarının mahiyyətini, formalaşması və fəaliyyətinin ilkin şərtlərini araşdırımaq;
- ərzaq təhlükəsizliyinin təmin edilməsində ərzaq bazarının rolunu müəyyənləşdirmək;
- ərzaq bazarı sistemində dəyər zəncirini formalaşdıran subyektlərin təşkilati və iqtisadi əlaqələrini aşkar etmək;
- ərzaq bazarının konyunkturunu və inkişafındakı əsas meylləri müəyyənləşdirmək;
- ərzaq bazarının yerli kənd təsərrüfatı məhsulları ilə təminatının mövcud səviyyəsini təhlil etmək;
- ərzaq bazarının idxaldan asılılıq səviyyəsini müəyyən etmək;
- kənd təsərrüfatında ərzaq məhsulları istehsalının stimullaşdırılması istiqamətlərini müəyyənləşdirmək;
- ərzaq bazarının dövlət tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərini əsaslandırmaq;
- rəqabət qabiliyyətli aqrar istehsalın artırılması və ərzaq məhsulları ilə özünütəminatın yaxşılaşdırılması perspektivlərini müəyyən etmək.

**Tədqiqat metodları:** Tədqiqat zamanı müşahidə, müqayisəli təhlil, balans, məntiqi ümumiləşdirmə, məqsədli-sistemli yanaşma, iqtisadi-statistik, qruplaşdırma və digər üsullardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılarla xarakterizə olunur:

- ərzaq bazarının formalaşması mexanizminin nəzəri-metodoloji əsaslarının öyrənilməsi, aqrar ərzaq istehsalçıları, istehlakçılar və dövlət orqanları arasında yaranan iqtisadi və institusional

münasibətlərin araşdırılması;

- ərzaq bazarının ölkənin iqtisadi təhlükəsizliyində, aqrar sahənin bu bazar növünün yerli kənd təsərrüfatı məhsulları ilə təminatı istiqamətinin müəyyən edilməsi;

- ərzaq bazarınınmum, iqtisadi sərhədlərinin, fəaliyyəti ilə bağlı zəruri şərtlərin və yaradılmış dəyərin reallaşdırılması imkanlarının müəyyənləşdirilməsi;

- ərzaq bazarının yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunma səviyyəsi ilə bağlı meyllərin tədqiqi və ehtiyat mənbələrinin müəyyən edilməsi;

- rəqabət mühtinin yaradılması və rəqabət qabiliyyətli aqrar istehsala dövlət dəstəyinin həyata keçirilməsi istiqamətlərinin müəyyən edilməsi;

- ərzaq bazarının tənzimlənməsi və kənd təsərrüfatı məhsulları ilə təminatının yaxşılaşdırılması perspektivlərinin aşkar edilməsi və təkliflər hazırlanması.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ərzaq bazarının müasir iqtisadi münasibətlər sistemində konseptual rolunu və kənd təsərrüfatı məhsulları ilə təminatının yaxşılaşdırılması istiqamətlərini müəyyənləşdirməyə imkan verən aşağıdakı müddəalardan ibarətdir:

- ölkənin ərzaq təhlükəsizliyi kontekstində qlobal qida təchizatı sisteminin tərkib hissəsi kimi yerli ərzaq bazarının inkişaf xüsusiyyətləri, o cümlədən ərzaq kompleksinin subyektlərinin bazarı lazımi miqdarda ərzaq məhsulları ilə təmin etməli və əhalinin ehtiyaclarını ödəməli olması, bazar iştirakçıları arasındakı münasibətlərin qarşılıqlı faydalı və davamlı əlaqələrin qurulmasına əsaslanmasının və ərzaq bazarının inkişafının dövlət tənzimləməsinin artan rolu ilə bazar mexanizmləri nəzərə alınmaqla optimallaşdırılmasının zəruriliyi və s. müəyyənləşdirilmişdir;

- ərzaq bazarını yerli məhsullarla təmin edən kənd təsərrüfatında dəyər zənciri həlqələrinin – istehsal, bölgü, mübadilə, emal və s. qarşılıqlı səmərəlilik meyarları iqtisadi cəhətdən əsaslandırılmışdır;

- ərzaq bazarının fəaliyyətinin səmərəliliyinin və ona təsir edən amillərin təhlili kontekstində tələbatla müqayisədə faktiki istehlak və idxaldan asılılıq səviyyəsi müəyyənləşdirilmiş, qida məhsullarının

iqtisadi cəhətdən əlçatanlığı ilə əhalinin yerli istehsal hesabına ərzaqla təmin edilməsi imkanları əlaqələndirilmişdir;

- ərzaq bazarının dövlət tənzimlənməsi mexanizminin birbaşa və dolayı vasitələrinin - iqtisadi və qeyri-iqtisadi metodlarının tətbiqi tədbirlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir;
- ərzaq bazarının təminatının əsasını təşkil edən kənd təsərrüfatında istehsalın stimullaşdırılması və dövlət dəstəyi tədbirləri üzrə prioritetlər müəyyən edilmişdir;
- ərzaq məhsulları ilə özünütəminatın yaxşılaşdırılması və idxaldan asılılığın azaldılmasında əsas vasitələrdən hesab edilən rəqabət qabiliyyətli istehsalın artırılması perspektivləri müəyyənləşdirilmişdir;
- ərzaq bazarının inkişafında marketinq fəaliyyətinin sosial-iqtisadi əsasları müəyyən edilmiş, ərzaq məhsullarının satış sisteminin inkişaf etdirilməsində marketinq sisteminin rolu qiymətləndirilməklə tələb-təklif tarzlığının təmin edilməsində səmərəlilik meyarları müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Tədqiqatın nəzəri əhəmiyyəti ərzaq bazarının formalaşması, səmərəli fəaliyyəti və yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasının yaxşılaşdırılması problemləri üzrə elmi cəhətdən əsaslandırılmış müddəalarla xarakterizə olunur. Dissertasiyada təqdim olunan nəzəri müddəalar ərzaq bazarının inkişafı və aqrar ərzaq təminatının yaxşılaşdırılması strategiyasını müəyyənləşdirməyə, hazırlanan təkliflərin daha dərindən əsaslandırılmasına imkan verir. Dissertasiya işinin materiallarından "Mikroiqtisadiyyat", "Aqrar bazar münasibətləri", "Bazar infrastrukturu", "Aqrar siyasət" və digər fənlərin tədrisində istifadə oluna bilər.

**Dissertasiya işinin nəticələrinin aprobasiyası və tətbiqi:** Tədqiqat işinin nəticələrini əks etdirən müddəalar və əldə edilmiş nəticələr nüfuzlu yerli və xarici jurnallarda, həmçinin respublika və beynəlxalq əhəmiyyətli elmi-praktiki konfransların materiallarında öz əksini tapmışdır. Beləki "Ərzaq bazarının kənd təsərrüfatı məhsulları ilə təminatında ixtisaslaşmanın rolu"(Gəncə 2012), "Aqrar sahənin davamlı inkişafının əhalinin ərzaqla təminatında rolu"(Doktorant və gənc tədqiqatçıların XVII Respublika elmi-praktiki konfransı. Bakı 18-19 noyabr 2013)," Основные аспекты и условия механизма

обеспечения продоволъственной безопасности” (The World Of Scıence And Innovatıon Proceedıngs Of X Internatıonal Scıentıfıc And Praktıcal Conference, London ,United Kingdom, 5-7 may 2021) adlı tezislər müvafiq elmi konfansların materiallarında dərc edilmişdir. Dissertasiya işinin əsas müddəalarını əks etdirən 2-si xaricdə olmaqla 15 məqalə və tezis dərc edilmişdir.

Tədqiqatda irəli sürülmüş təklif və tövsiyələr Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzi (arayış №03,15sentyabr 2021-ci il) və Oğuz Dövlət Aqrar İnkişaf Mərkəzi (arayış №A/ 05, 20 sentyabr 2021-ci il) tərəfindən tətbiq üçün qəbul edilmişdir .

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı: Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi:** Dissertasiya işi girişdən, üç fəsildən, nəticələrdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 127 səhifə komputer yazısı, 254785 işarədən ibarətdir.

Dissertasiyanın strukturunda giriş 6 səhifə olub 12212 işarədən, birinci fəsil 39 səhifə olub 88269 işarədən, ikinci fəsil 32 səhifə olub 65523 işarədən, üçüncü fəsil 27 səhifə olub 56380 işarədən, nəticələr 6 səhifə 11883 işarədən və istifadə edilmiş 141 sayda ədəbiyyat siyahısı 13 səhifə olub 18727 işarədən ibarətdir.

İşdə 13 cədvəl, 1 qrafik vardır.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilməsi vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası şərh olunmuşdur.

Dissertasiya işinin I fəsli **“Ərzaq bazarının formalaşması mexanizminin nəzəri-metodoloji əsasları”** adlanır. Bu fəsildə ərzaq bazarının iqtisadi mahiyyəti, onun formalaşması mexanizminin nəzəri-metodoloji əsasları, ərzaq bazarının formalaşması şərtləri, inkişaf prinsipləri və xüsusiyyətləri, ərzaq bazarının ölkənin iqtisadi təhlükəsizliyində rolu məsələləri şərh edilir.

Ərzaq təminatı problemi hər bir dövlətin iqtisadi siyasətinin prioritetlərindən hesab edilir. Aqrar-ərzaq potensialının azalması kənd təsərrüfatı istehsalında kəskin azalmalara səbəb olmaqla idxal olunan kənd təsərrüfatı məhsullarının tədricən yerli məhsulların bazardan sıxışdırılmasına gətirib çıxarır ki, bu da ərzaq bazarında bahalaşmaya, keyfiyyətli məhsulların qıtlığına səbəb olur. Bu səbəbdən əhalinin qida məhsullarına olan ehtiyaclarını qarşılamaq üçün, bazar iqtisadiyyatı qanunlarına əsaslanan ərzaq bazarının formalaşdırılması zəruridir. Ərzaq bazarının formalaşması və fəaliyyət mexanizmi qida məhsullarının istehsalı, bölgüsü, mübadiləsi və istehlakına obyektiv təsir göstərən amillərin və proseslərin qarşılıqlı əlaqəsi kimi xarakterizə olunur. Ərzaq bazarının fəaliyyətinin effektivliyi əhalinin ehtiyaclarının ödənilməsi, daxili istehsal imkanlarının reallaşdırılması və sahələrarası əlaqələrin inkişafı ilə müəyyən edilir.

Aqrar sferada bazar münasibətlərinin formalaşması təkcə ərzaq bazarının daxili xüsusiyyətlərinin deyil, həm də kənd təsərrüfatı məhsulları bazarının formalaşmasına bir başa təsir göstərən xarici amillərin nəzərə alınmasını tələb edir. Ərzaq bazarının formalaşmasına bir çox amillər təsir edir. Birinci qrupuna iqtisadi artım mənbələri daxildir: təbii və əmək ehtiyatlarının miqdarı və keyfiyyəti; həm təbii, həm də əmək resurslarının istehsalata cəlb olunmasını təmin edən maliyyə mənbələrinin mövcudluğu; yüksək texnologiyaların mövcudluğu; istehsalın səmərəliliyinin təmin olunması imkanları. K.Mokkonnell və S.Bryu göstərilənləri, satıla bilən məhsulların istehsalının artırılmasını mümkün edən təklif amilləri kimi xarakterizə edir[1].

İkinci qrupa tələbin formalaşmasına təsir edən amillər daxildir. Tələb, bazarda ehtiyacların reallaşdırılması imkanları kimi başa düşülür. Bu halda istehlak edilmiş məhsulların miqdarı tələbin həcmindən fərqləndirilməlidir. Tələbin həcmi, qiymət, istehlakçıların sayı, ehtiyacların strukturu, istehlakçı gəlirlərinin səviyyəsi və s. kimi mühüm amillərdən asılıdır.

Ərzaq bazarının formalaşmasına təsir göstərən üçüncü qrup amillər, tələb və təklifin qarşılıqlı təsirindən qaynaqlanan amillərdir.

---

[1] Макконнелл К. Р., Брю С. Л. Экономикс: Принципы, проблемы и политика. В 2 т. - М.: Турант, 2000.- 520 с.82.

Dördüncü qrup amillər dövlət orqanlarının birbaşa təsir metodları hesab edilir. Buraya ilk növbədə həm istehsalçılar arasında, həm də istehlakçılar arasında rəqabət səviyyəsi daxildir.

Beşinci qrupa iqtisadi dövriyyəyə cəlb olunmanı təmin edən resurs bölgüsü amilləri daxildir.

Altıncı qrup dolayı təsir amilləri adlandırılır. Belə ki, ölkədəki ictimai, siyasi və mədəni mühit iqtisadi proseslərə birbaşa təsir gücünə malik deyil. Bu baxımdan əhalinin sosial-psixoloji hazırlığı, idarəetmə ilə bağlı bazar şərtlərinə uyğun gələn ictimai şüur səviyyəsindəki dəyişiklik son dərəcə vacibdir.

Aqrar ərzaq bazarı məhsul və xidmətlərə tələb və təklifin mikro və makro səviyyədə tarazlaşdırılmasını həyata keçirən bir sistem kimi başa düşülür. Eyni zamanda, bu bazarda tələb və təklifin əlaqələndirilməsi qiymətlər və rəqabət sistemi vasitəsilə həyata keçirilir. Ona görə də tələb, təklif, qiymət, rəqabət aqrar ərzaq bazarının formalaşması və fəaliyyət göstərməsi üçün iqtisadi mexanizmin əsas alətləridir.

Ərzaq bazarı təbiətinə görə bir çox amillərin təsiri ilə fəaliyyət göstərən və inkişaf edən sistem kimi özünü göstərir. Ərzaq bazarının inkişafı transformasiya şəraitində iqtisadi tənzimləmə siyasətinin formalaşdırılmasını, ərzaq kompleksinin inkişafı üçün məqsədyönlü proqramların hazırlanmasını tələb edir. Bu şərtlər daxilində aqrar sahənin real inkişafı baş verir, ərzaq bazarında ticarət təşkilatlarının və vasitəçilərin maraqları təmin edilir. Ərzaq bazarının inkişafı problemlərinin həllində səmərəli kənd təsərrüfatı əlaqələrinin qurulmasına, sosial-iqtisadi, ekoloji və demoqrafik göstəricilərin inkişafı və yaxşılaşdırılmasına, istehsalın yüksək səmərəliliyinə, elmi və texniki inkişafın prioritetlərinin inkişafına kömək edəcək amillərin tənzimlənməsi də tələb olunur. Beləliklə, ərzaq bazarını təşkil etmək və inkişaf etdirmək üçün rəqabət mühitinin yaradılmasına və ərzaq təchizatı sistemini təşkil edən həlqələrin səmərəli fəaliyyətinə kömək edəcək dəstək mexanizminin formalaşdırlması ən əhəmiyyətli məsələlərdən hesab edilir.

Araşdırmalar göstərir ki, aqrar sahə üçün xarakterik olan bəzi problemlər - torpağın təbii məhsuldarlığının aşağı olması, kənd təsərrüfatı istehsalının aşağı səmərəliliyi, istehsalın yüksək riskli olması, sənaye və kənd təsərrüfatı arasındakı əlaqələrdə qiymət tarazlığının pozulması, ticarət infrastrukturunun və ərzaq bazarlarının marketinq

araşdırmalarının zəruri səviyyədə olmaması yerli məhsulların idxal məhsulları ilə rəqabət imkanlarına mənfi təsir göstərir. Bu baxımdan ərzaq bazarının inkişaf tendensiyalarını nəzərə alaraq yerli istehsalçıların rəqabət qabiliyyətinin artırılması və bazar münasibətlərinin inkişafı üçün əsas amil kimi kənd təsərrüfatı bazarlarının formalaşması və inkişafının metodoloji əsaslarının hazırlanması olduqca vacibdir.

Araşdırmalar göstərir ki, ərzaq bazarının inkişafı məhsul və xidmət növlərinə görə təsnifləşdirilən və kənd təsərrüfatında fəaliyyət göstərən aşağıdakı bazarların fəaliyyətindən əhəmiyyətli dərəcədə asılıdır: kənd təsərrüfatı məhsulları bazarları; kənd təsərrüfatı üçün maddi-texniki ehtiyatlar bazarları; iş və xidmət bazarları; ticarət sahəsi bazarları (marketinq xidmətləri). Maddi-texniki ehtiyatlar bazarı kənd təsərrüfatı istehsalını lazımi avadanlıq və ehtiyatlarla təmin edir. Bu bazarda dörd əsas seqment mövcuddur: kənd təsərrüfatı maşınları və mexanizmləri bazarı; ehtiyatlar bazarı (yanacaq, enerji, sənaye xammalı və materialları); heyvan yemi bazarı; mineral gübrələr bazarı[2].

Ərzaq bazarının formalaşması və inkişafına sosial amillər ciddi təsir göstərir. Sosial amillərə əhalinin sayını, onun sosial-demoqrafik tərkibi və ərazidə yerləşməsi, təsərrüfat subyektlərinin əmək ehtiyatları ilə təmin edilməsinin kəmiyyət və keyfiyyət səviyyəsi aid edilir.

İqtisadi amillər arasında kənd təsərrüfatı istehsalının yerləşməsi, emal sənayesinin inkişaf səviyyəsi, ərzaq məhsulları istehsalçıları ilə xammal tədarükçüləri arasında iqtisadi əlaqələr, əmtəə mübadiləsini təmin edən sahələrarası əlaqələrin səviyyəsi, qida məhsullarının qiymətlərinin səviyyəsi yer alır.

Ərzaq bazarını təşkil etmək və inkişaf etdirmək üçün rəqabət mühitinin yaradılmasına və ərzaq təchizatı sistemini təşkil edən həlqələrin səmərəli fəaliyyətinə kömək edəcək dəstək mexanizminin formalaşdırlması ən əhəmiyyətli məsələlərdən hesab edilir. Ərzaq bazarının formalaşmasının son mərhələsində bir-biri ilə əlaqəli məhsul bazarlarının məcmusu olan bazar dövriyyəsinin təşkilati quruluşu tam fəaliyyəti ilə özünü göstərməlidir.

---

[2] Анализ действующих систем регулирования агропродовольственного рынка в государствах-членах ЕАЭС в части налогообложения,кредитования, страхования, ценового регулирования и разрешительной системы ЕЭК. М., 2015.- 65 с.

Araşdırmalar göstərir ki, hər bir ölkənin ərzaq asılılığı ilk növbədə onun milli aqrar-ərzaq kompleksinin aşağı səmərəliliyi nəticəsində yaranır, bu isə iqtisadi artımdakı azalmaya, xarici borc probleminin kəskinləşməsinə, milli valyutanın qeyri-sabitliyinə gətirib çıxarır.

E.Quliyev haqlı olaraq qeyd edir: "*qida məhsulları ehtiyatlarının yaradılmasında da yerli istehsalın planlaşdırılması və proqnozlaşdırılması daha cox səmərə verə bilər,cünki bu hallarda kənar amillərin təsiri minumuma enir və ölkənin valyuta ehtiyatlarına qənaət olunur*"[3]

Ölkənin ərzaq təhlükəsizliyi bir çox iqtisadi amillərlə, o cümlədən aqrar-sənaye sahələrinin inkişafı ilə birbaşa əlaqəli olmayan amillərlə müəyyənləşdirilir. İqtisadi təhlükəsizlik sistemində ərzaq təhlükəsizliyi probleminin əhəmiyyəti ondadır ki, o ətraf mühitin təhlükəsizliyi ilə də sıx əlaqəlidir. Çünki qeyri-sabit kənd təsərrüfatı fəaliyyəti bir tərəfdən kənd təsərrüfatı istehsalının artımına mane olan ekoloji vəziyyəti pisləşdirir, digər tərəfdən müxtəlif zəhərli maddələrlə çirklənmiş ərzaq məhsulları istehsalına səbəb olur. Bu onu göstərir ki, ərzaq problemi ya əhalinin qida ilə təminatında azalma, ya da onun sağlamlığına, ömür müddətinə mənfi təsir göstərməsi səbəbindən mürəkkəbliyi ilə özünü büruzə verir[4].

Ərzaq təhlükəsizliyinin məqsədi əhalinin qidaya olan tələbatını əsasən yerli məhsullar hesabına kifayət qədər səviyyədə təmin etməkdir. Bu baxımdan əhalini ərzaq məhsulları ilə təmin etmək məqsədilə bəzi ölkələrdə strateji ərzaq ehtiyatının yaradılması konsepsiyası hazırlanır. Müasir şəraitdə daxili bazarın inkişaf etdirilməsində başlıca istiqamət aqrar-ərzaq istehsalının yeni tələblər səviyyəsində qurulmasıdır. Bu, hər şeydən əvvəl azad sahibkarlığın bərqərar olması, daxili bazarda tələb və təklifə uyğun ərzaq məhsulları bolluğunun yaradılmasıdır. Bu, həm də xaricdən gətirilən müxtəlif ərzaq məhsullarının həcminin minimuma endirilməsi, ərzaq bazarını yerli istehsal hesabına doldurmaqla aqrar sahənin normal fəaliyyətinin təmin edilməsidir.

---

[3] Quliye E.A.Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri.Monoqrafiya."Kooperasiya"nəşriyyatı.Bakı 2020.463 s.370

[4] Киселева Е.Н. Рынок продовольственных товаров: учеб. Пособие Е.Н.Киселева, О. В. Власова, Е. Б. Коннова. – М. : Вузовский учебник, 2012. –с.92.

Əhalinin ərzaqla etibarlı qaydada təmin edilməsi probleminin təkcə mühüm sosial deyil, həmcinin böyük ictimai-siyasi əhəmiyyəti vardır. Çünki hər bir ölkənin ərzaq təhlükəsizliyi milli təhlükəsizliyin vacib tərkib hissəsi olmaqla onun iqtisadi və siyasi müstəqilliyinin möhkəm zəminidir. Əkincilik və heyvandarlıq məhsullarının istehsalı və istehlakının kifayət qədər yüksək səviyyəsi cəmiyyətin sabitliyini xeyli dərəcədə müəyyən edir, onun dinamik və hərtərəfli inkisafı üçün münbit  şərait yaradır.

Təcrübədə ərzaq təhlükəsizliyinin qiymətləndirilməsi problemi istehsalçılar və istehlakçılar baxımından iki yolla qiymətləndirilməlidir. Bu bir tərəfdən, həcm və struktur cəhətdən spesifik ərzaq növlərinə tələbin real təmin edilməsi ilə əlaqəli göstəricilərdir. Belə göstəricilər yerli istehsal imkanları və idxal potensialı, təşkilati və iqtisadi kanallarla rasional əldə edilmə imkanları nəzərə alınaraq ərzaq məhsullarının əhaliyə çatdırılması formalarını əks etdirir.

Dissertasiya işinin **"Ərzaq bazarının yerli kənd təsərrüfatı məhsulları ilə təminat səviyyəsi və inkişaf meylləri"** adlı II fəslində kənd təsərrüfatında ərzaq məhsulları istehsalının dinamikası və ərzaq bazarının fəaliyyəti təhlil edilir, ərzaq bazarının yerli kənd təsərrüfatı məhsulları ilə təminatının mövcud səviyyəsi araşdırılır.

Aqrar sferanın səmərəli fəaliyyəti və inkişafı daha çox təbii resurslardan və digər istehsal amillərindən istifadə edilməsinə, səmərəli dövlət dəstəyinə əsaslanır. Ərzaq probleminin həllində də məhz kənd təsərrüfatı istehsalının artırılması zəruridir. Ərzaq təminatı öz növbəsində əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi və ya ərzaq məhsullarının qiymət artımının məhdudlaşdırılması, eləcə də ərzaq bazarının tarazlığının, rəqabət şəraitinin və bazar prosesinin bütün iştirakçılarının zəruri gəlir səviyyəsinin təmin edilməsi, məhsulların kənd təsərrüfatı istehsalçısından son istehlakçıya birbaşa hərəkətinin təmin olunması, minimum maddi, texniki və maliyyə mənbələrinin formalaşdırılması hesabına mümkündür. Bu istiqamətdə istehsalın davamlı təkmilləşdirilməsi və innovativ inkişafının stimullaşdırılması və təşviqi ən mühüm tədbirlərdəndir. Vurğulamaq lazımdır ki, ərzaq problemlərinin uzun müddətli həlli dövlətin geniş dəstəyi, aqrar-sənaye sahələrinin çoxşaxəli inkişafı, innovasiya fəaliyyətinin genişlənməsi, beynəlxalq iqtisadi birliklərin fəaliyyətində fəal iştirak kimi mühüm

məsələlərlə mümkündür. Bütün bunlar son nəticədə ərzaq bazarını yerli kənd təsərrüfatı məhsulları ilə dayanıqlı şəkildə təmin edilməsində, beləliklə ölkənin ərzaq və iqtisadi təhlükəsizliyinizində mühüm rol oynaya bilər.

Araşdırmalar göstərir ki, ərzaq bazarının hazırkı vəziyyəti məhsulların satış və bölgü kanallarının artması ilə xarakterizə olunur. Aqrar-sənaye sektorunda bazar münasibətlərinin inkişafı, əmtəə istehsalçılarının məhsullarını alternativ satış kanallarına yönəltməsi istiqamətini əsas götürdüyü qənaətinə gəlməyə əsas verir. Qeyd edilən məsələlərin təhlili üçün ilk növbədə ərzaq bazarında təklif olunan əsas kənd təsərrüfatı məhsulların ticarət dövriyyəsinin dinamikasına nəzər salaq. Məlumatların təhlilindən aydın olur ki, son 5 ildə bütün məhsul növləri üzrə pərakəndə ticarət dövriyəsində artım baş vermişdir. Belə ki, 2016-ci illə müqayisədə 2020-ci ildə bu göstərici meyvələrdə 36,7%, kartofda 41,8%, tərəvəzdə 2,3 dəfə, ət məhsulunda 50,1%, ev quşlarının ətində 43,8%, ət və quş əti məhsullarında 49,7%, süd və süd məhsullarında 42,4%, yumurtada 18,5%, təbii balda 30,8%, digər qruplara daxil edilməyən kənd təsərrüfatı xammalında 50,6% artım qeyd alımışdır (cədvəl 1).

**Cədvəl 1. Ərzaq bazarında məhsul növləri üzrə pərakəndə ticarət dövriyyəsi, mln. man**

| Məhsullar | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2016-cı illə müqayisədə 2020-ciildə, faizlə |
|---|---|---|---|---|---|---|
| Meyvələr | 1748,2 | 2144,1 | 2304,9 | 2 225,2 | 2390,6 | 136,7 |
| Kartof | 119,1 | 148,1 | 135,4 | 166,2 | 168,9 | 141,8 |
| Tərəvəz | 1413,0 | 1839,6 | 2 005,3 | 2 464,9 | 3192,9 | 2,3 dəfə |
| Ət | 1498,5 | 2016,8 | 2064,9 | 2 142,5 | 2249,7 | 150,1 |
| Ev quşlarının əti | 554,4 | 693,5 | 710,2 | 752,5 | 797,5 | 143,8 |
| Ət və quş əti məhsulları | 173,3 | 201,9 | 215,9 | 240,1 | 259,4 | 149,7 |
| Süd və süd məhsulları | 510,0 | 598,1 | 638,9 | 683,1 | 726,0 | 142,4 |
| Yumurta | 291,8 | 277,2 | 315,1 | 311,8 | 345,7 | 118,5 |
| Təbii bal | 21,1 | 22,9 | 24,2 | 26,9 | 27,6 | 130,8 |
| Digər qruplara daxil edilməyən kənd təsərrüfatı xammalı | 7,9 | 8,6 | 8,9 | 9,2 | 11,9 | 150,6 |

Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [s.34].

Müşahidə göstərir ki, ərzaq bazırında ticarət dövriyyəsinin artımı demək olar ki, hər bir il üzrə dinamik olaraq baş vermişdir. Bu baxımdan ticarət dövriyyəsinin fiziki həcm indeksinin təhlilindən aydın olur ki, müqayisənin aparıldığı 2016- 2020-ci ilərdə bütün məhsul növlərində göstərici artmışdır. O cümlədən meyvələrdə əvvəlki ilə nisbətən artım 2016-ci ildə 0,1%, 2017-cı ildə 2,3%, 2018-ci ildə 1,6%, 2019-ci ildə 2,1% və 2020-ci ildə 0,2% artım qeydə alınmışdır. Kartofda müvafiq illərdə 6,3%, 4,7%, 4,1%, 5,3% və 3,1% artım görmək mümkündür. Heyvandarlıq məhsullarından ət məhsulu üzrə artım 1,5%, 2,7%, 2,5%, 1,5% və 1,3% səviyyəsində qeydə alınmışdır. Qeyd etmək lazımdır ki, digər məhsul növləri üzrə də oxşar vəziyyət müşahidə edilir (cədvəl 2).

**Cədvəl 2. Ərzaq bazarında pərakəndə ticarət dövriyyəsinin fiziki həcm indeksi, əvvəlki ilə nisbətən %-lə**

| Məhsullar | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Meyvələr | 100,1 | 102,3 | 101,6 | 102,1 | 100,2 |
| Kartof | 106,3 | 104,7 | 104,1 | 105,3 | 103,1 |
| Tərəvəz | 101,9 | 103,7 | 102,9 | 101,0 | 100,3 |
| Ət | 101,5 | 102,7 | 102,5 | 101,5 | 101,3 |
| Ev quşlarının əti | 102,8 | 102,6 | 103,3 | 104,5 | 104,1 |
| Ət və quş əti məhsulları | 103,5 | 101,9 | 104,6 | 108,1 | 105,2 |
| Süd və süd məhsulları | 102,4 | 104,9 | 102,5 | 103,2 | 103,5 |
| Yumurta | 101,1 | 101 | 101 | 102,7 | 98,6 |
| Təbii bal | 100,1 | 102,7 | 103,1 | 107,7 | 102,1 |
| Digər qruplara daxil edilməyən kənd təsərrüfatı xammalı | 101,4 | 100,5 | 103,1 | 102,2 | 127,1 |

Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir .

Ərzaq bazarında ticarət dövriyyəsinə müxtəlif amillər təsir edir. Bu baxımdan əmtəələrin qiymətini xüsusi qeyd etmək lazımdır.

Ərzaq bazarında qiymətlərin səviyyəsinə nəzər saldıqda məlum olur ki, son 5 ildə ərzaq məhsullarının istehlak qiymətində dinamik artım baş vermişdir. Belə ki, əvvəlki illə müqayisədə istehlak qiymətləri indeksi 2016-cı ildə 14,7%, 2017-ci ildə 16,4%, 2018-ci ildə 1,7%, 2019-cu ildə 3,8% və 2020-ci ildə 5% artmışdır. Müvafiq dövrdə cəmi məhsullar üzrə də oxşar tendensiya müşahidə olunur -2016-cı ildə 15,7%, 2017-ci ildə 14%, 2018-ci ildə 2,2%, 2019-cu ildə 2,5% və 2020-ci ildə 3,3% artım qeydə alınmışdır (qrafik ).




**Qrafik. İstehlak məhsullarının qiymət indeksləri, əvvəlki ilə nisbətən, %-lə**

Hazırda getdikcə dərinləşən qloballaşma proseslərinin ərzaq bazarına təsiri beynəlxalq rəqabətin artmasını istehsalçılar üçün qaçılmaz bir fakta çevirir. Belə şəraitdə, aqrar-ərzaq sektorunun səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması ən vacib vəzifələrdəndir. Bunlar son nəticədə ərzaq bazarının fəaliyyətində, onun yerli məhsullarla təminatında özünü göstərir.

Bu baxımdan bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsinin təhlili göstərir ki, 2016-ci illə müqayisədə 2020-ci ildə buğda üzrə özünütəminetmə səviyyəsi 52,9%-dən 57,1%-ə, qarğıdalı üzrə 71,1%-dən 86,6 %-ə, bütün növ tərəvəzlər üzrə 105,4%-dən 110,4%-ə, bostan məhsulları üzrə 100,2%-dən 100,8%-ə, üzüm üzrə 89,2%-dən 95,8%-ə kartof üzrə 85,5-dən 90,6-a yüksəlmişdir. Müqayisə olunan dövrdə özünütəminetmə səviyyəsi paxlalılar üzrə 68,4%-dən 60,3%-dək, meyvə və giləmeyvə üzrə isə 116,4%-dən 116,3%-ə qədər azalmışdır (cədvəl 3).

Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsinin təhlilindən aydın olur ki, 2016-ci illə müqayisədə 2020-ci ildə bütün növ mal-qara və quş əti üzrə özünütəminetmə səviyyəsi 87,9%-dan 84,5%-ə düşmüşdür. Müqayisə aparılan dövrdə mal əti və ət məhsulları ilə özünütəminetmə səviyyəsi 93,5%-dən 87,4%-ə, qoyun əti və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi 98,7%-dən 97,3%-ə, quş əti və ət məhsulları üzrə 79,1%-dən 79,0%-ə, süd və süd məhsulları üzrə özünütəminetmə səviyyəsi üzrə 87,7%-dən 83,5%-ə, balıq və balıq məhsulları üzrə isə 82,3%-dən 81,7%-ə geriləmişdir. Müqayisə

olunan dövrdə yalnız yumurta üzrə özünütəminetmə səviyyəsində 98,8%-dən 100,0% qədər artım olmuşdur (cədvəl 4).

**Cədvəl 3. Bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz.**

| Məhsulların adı | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Buğda | 52,9 | 58,1 | 64,8 | 57,2 | 57,1 |
| Qarğıdalı | 71,1 | 70,7 | 82,7 | 80,0 | 86,6 |
| Paxlalılar | 68,4 | 73,7 | 72,0 | 76,1 | 60,3 |
| Kartof | 85,5 | 89,2 | 90,8 | 87,8 | 90,6 |
| Bütün növ tərəvəz | 105,4 | 115,2 | 115 | 112,0 | 110,4 |
| Bostan məhsulları | 100,2 | 100,2 | 99,7 | 100,8 | 100,8 |
| Meyvə və giləmeyvə | 116,4 | 122,4 | 123,2 | 123,1 | 116,3 |
| Üzüm | 89,2 | 93,4 | 92,5 | 94,3 | 95,8 |

Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

**Cədvəl 4. Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz**

| Məhsulların adı | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Bütün növ mal-qara və quş əti | 87,9 | 84,7 | 82,7 | 82,5 | 84,5 |
| mal əti və ət məhsulları | 93,5 | | 85,1 | 86,1 | 87,4 |
| qoyun (keçi) əti və ət məhsulları | 98,7 | 98,0 | 98,1 | 97,6 | 97,3 |
| quş əti və ət məhsulları | 79,1 | 79,7 | 75,9 | 74,6 | 79,0 |
| Süd və süd məhsulları | 87,7 | 86,1 | 86,7 | 86,3 | 83,5 |
| Yumurta | 98,8 | 100,5 | 101,5 | 101,8 | 100,0 |
| Balıq və balıq məhsulları | 82,3 | 81,2 | 83,2 | 82,2 | 81,7 |

Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qeyd edilənlərdən göründüyü kimi, ərzaq bazarının sabitliyi ilk növbədə kənd təsərrüfatı məhsullarının istehsal həcmi və ehtiyatları ilə müəyyən edilir. Bu baxımdan yerli istehsalın səmərəliliyinin artırılması, daxili bazarın tələbatının ödənilməsi və istehsal şərtlərinin bərabərləşdirilməsi qoruyucu tədbirlər kimi özünü biruzə verir və dövlətin iqtisadi siyasətinin qaçılmaz komponentlərini təşkil edir.

Dissertasiya işinin **"Ərzaq bazarının kənd təsərrüfatı məhsulları ilə təmin olunmasının yaxşılaşdırılması istiqamətləri"** adlı III fəslində kənd təsərrüfatında ərzaq məhsulları istehsalının stimul-

laşdırılması istiqamətləri, ərzaq bazarının tənzimlənməsi və qorunması tədbirləri, həmçinin rəqabət qabiliyyətli aqrar istehsalın ərzaq məhsulları ilə özünütəminatda rolu məsələləri öz əksini tapır.

Aqrar sahənin iqtisadi inkişaf strategiyası, o cümlədən onun əsas hədəfləri, məqsədləri, innovativ proqramlara və layihələrə dəstək mexanizmləri, elmi imkanları səfərbər etməyi nəzərdə tutan dövlətin stimullaşdırma tədbirləri əsasında müəyyən edilir. Bu baxımdan kənd təsərrüfatının texniki və texnoloji modernləşdirilməsinin stimullaşdırlması yolu ilə ayrı-ayrı sahələrin effektiv və dinamik inkişafını təmin etmək mümkündür. Kənd təsərrüfatının dinamik və innovativ inkişafını təmin etmək, kənd yerlərinin iqtisadi və sosial inkişafını təşviq etmək üçün dövlət dəstəyinin həcminin artırılması və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün ehtiyatlar axtarılması xüsusilə vacibdir.

Araşdırmalar göstərir ki, stimullaşdırma siyasətində prioritetlərdən biri elmi-texniki və texnoloji tərəqqinin təşviqidir. Beynəlxalq təcrübədə elmi-texniki sahədəki investisiyalar “gələcəyə qoyulan investisiyalar” adlanır və aqrar-sənaye sferasındakı yeniliklər strateji hədəflərə çatmağın ən təsirli yollarından biri hesab olunur.

Kənd təsərrüfatı müəssisələrinə dövlət dəstəyi aşağıdakı əsas sahələrdə həyata keçirilir: kənd təsərrüfatı məhsullarının sığortalanması müqavilələri üzrə istehsalçıların xərclərinin bir hissəsini ödəmək üçün subsidiyaların verilməsi; material, maddi və texniki ehtiyatların alınması xərclərinin bir hissəsinin ödənilməsi; kreditlər üzrə faiz dərəcəsinin subsidiyalaşdırılması; elit toxumçuluq, heyvandarlıq və konkret istehsal sahələrini dəstəkləmək üçün subsidiyaların verilməsi; gübrələr, yanacaq və sürtkü yağlarının alınması məqsədilə subsidiyaların verilməsi; kənd təsərrüfatı məhsulları bazarına dəstək; kəndin sosial infrastrukturunu dəstəkləmək üçün maliyyə resursları ilə təmin etmək və s.

Əhalinin qida ilə təminatı və ərzaq təhlükəsizliyinin səviyyəsi həlledici dərəcədə ərzaq bazarının vəziyyətindən asılıdır. Ərzaq bazarının fəaliyyətində xüsusi rol iqtisadi proseslərə nəzarəti və tənzimlənməni həyata keçirən dövlətə aiddirƏrzaq bazarında dövlətin iqtisadi proseslərə təsiri və bazarın fəaliyyətinin tənzimləməsi əsasən birbaşa inzibati metodlarla və ya iqtisadi vasitələrlə həyata keçirilir.

Ərzaq bazarının tənzimlənməsinin inzibati metodlarına qanunvericiliklə bağlı tədbirlər – qanunların qəbulu və təkmilləşdirilməsi, məhdudiyyətlərin və qadağaların tətbiqi, normativ aktlar, qərarlar və s. aiddir. İqtisadi tənzimləmə vasitələri qiymət, vergi, gömrük, sığorta, maliyyə-kredit və və s. kimi mühüm sistemləri əhatə edir.

Ərzaq bazarının tənzimlənməsinin əsas hədəfi ölkənin ərzaq məhsullarına olan tələbatının kənd təsərrüfatı müəssisələri, qida sənayesi müəssisələri, habelə əhalinin şəxsi yardımçı təsərrüfatları tərəfindən istehsal edilən məhsullarla tam şəkildə ödənilməsidir.

Qeyd etmək lazımdır ki, tənzimləmədə əsas hədəflərdən biri ərzaq bazarında sabitliyi pozan amillərin aradan qaldırılması ilə, əhalini elmi əsaslı istehlak standartları səviyyəsində bütün növ əsas ərzaq məhsulları ilə fasiləsiz təmin etməkdir. Bu baxımdan ərzaq məhsullarına tələbin dəyişməsi istiqamətinin və xarakterinin orta və uzunmüddətli proqnozlaşdırılması tədbirləri tənzimləmədə ən vacib məsələlərdən hesab edilir. Çünki tənzimləmə mexanizmlərinin hərəkəti iqtisadi proseslərə kompleks təsir göstərəcək şəkildə davam edir.

Tənzimləmə tədbirləri ilk növbədə ərzaq təhlükəsizliyinin əsas amillərinin (qidanın iqtisadi cəhətdən əlçatanlığı və yetərliliyi) və kənd təsərrüfatı istehsalçılarının əsas probleminin (aşağı effektiv tələbatın) nəzərə alınmasını, ümumi qiymətləndirmələrin aparılmasını tələb edir. Ona görə ərzaq bazarının inkişafı və tənzimlənməsi üçün əsas səylər bazarda effektiv tələbin qorunmasına yönəldilməlidir. Kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyi isə məhsulların satışı imkanlarını genişləndirilməsini təmin etməlidir. Ərzaq bazarını inkişaf etdirmək üçün tədbirlər kompleksinin aşağıdakı istiqamətlərini məqsədəuyğun hesab etmək olar: ərzaq bazarında tələbi qorumaq üçün tədbirlər; sosial müdafiə səviyyəsində nəzərdən keçirilən tədbirlər; sosial yardım çərçivəsində proqramlar hazırlamaq və tədbirlər həyata keçirmək; az təminatlı ailələrə pulsuz ərzaq məhsulları vermək və s.

Beləliklə, ərzaq bazarının dövlət tənzimlənməsi proqramlı və hədəflənmiş bir xarakter daşımalı, zəruri mənbələr daxil olmaqla bir sıra hüquqi, iqtisadi, təşkilati və inzibati tədbirləri, həyata keçirilmə mexanizmlərini əhatə etməlidir. Qloballaşmanın genişlənməsi və dünya iqtisadi sisteminə inteqrasiya milli iqtisadiyyatın təhlükəsizliyi məsələlərini xüsusilə aktuallaşdırır. Bu, daxili ərzaq bazarının rəqabət

qabiliyyətliliyindən bilavasitə asılıdır.Ərzaq bazarında rəqabət mühitinin inkişaf meyilləri, daxili və dünya bazarlarında uzunmüddətli rəqabət üstünlüklərinin formalaşmasına imkan verməklə müəssisələrin mövcud daxili potensialı tam şəkildə reallaşdırmasına zəmin yaradır.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətini artırmaq üçün, resursların səmərəli istifadəsi və yeniliklərin tətbiqi strategiyasını tətbiq etmək ən zəruri tədbirlər kimi özünü göstərir.

## NƏTİCƏLƏR

Ərzaq bazarının formalaşması mexanizminin, inkişaf prinsipləri və xüsusiyyətlərinin, mövcud vəziyyətinin və yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunma səviyyəsinin tədqiqi bir sıra nəticələri ümumiləşdirməyə imkan verir.

1. Ərzaq bazarının təkamülü göstərir ki, bu bazar növünün təklif etdiyi məhsulların istehsalçıları, istehlakçıları və dövlət subyektlərinin məqsədləri eyni deyil. Belə ki, istehsalçılar daha çox məhsul satışı və yüksək qiymət hesabına gəlirlərini artırmaqda, istehlakçılar daha aşağı qiymətə tələbatlarını ödəməyə, dövlət isə tələb və təklifin tarazlığını təmin etməklə yanaşı ərzaq təhlükəsizliyini təmin etməyə çalışır. Kənd təsərrüfatında və ərzaq bazarında bazar münasibətlərinin özünəməxsus xüsusiyyətləri, onların fərqli inkişaf templərinə və şərtlərinə malik olduğunu göstərir. Ümumiyyətlə, ərzaq bazarını kənd təsərrüfatı məhsulları istehsalçıları ilə istehlakçıları arasında iqtisadi əlaqələr sistemi kimi xarakterizə etmək olar. Bu baxımdan, ərzaq bazarının strukturunda müstəqil, lakin bir-biri ilə əlaqəli aşağıdakı istiqamətləri ayırmaq olar: ərzaq məhsulları istehsalçıları; qida emalı üçün nəzərdə tutulan məhsulların satıldığı xammal bazarı; kənd təsərrüfatı və digər xammaldan alınan qida məhsullarının satışı ilə əlaqəli bütün iqtisadi əlaqələri xarakterizə edən ərzaq bazarı. Bunların hər biri özünün spesifik xüsusiyyətlərinə, texnologiyasına, əmtəə dövriyyəsi mexanizminə və infrastrukturuna malikdir.

2. Qeyd etmək lazımdır ki, ərzaq məhsullarının istehsalçıdan istehlakçıya qədər çatdırılmasının bazar şərtlərinə uyğun olaraq təşviq edilməsi sistemi ərzaq bazarında tam şəkildə effektiv deyildir. Bu,

əsasən istehsal-satış fəaliyyətinin təşkilinə inteqrasiya olunmuş yanaşmanın kifayət səviyyədə olmaması ilə əlaqədardır. Göstərilənlərdən aydın olur ki, iqtisadi rəqabət şəraitində əmtəə məhsullarının çeşidini bazar tələbinə uyğunlaşdırmaq və keyfiyyətini yaxşılaşdırmaq sahəsində təşkilati, texnoloji və iqtisadi-idarıetmə xarakterli çətinliklərlə üzləşir.

3. Ərzaq bazarını zəruri məhsullarla təmin edən yerli kənd təsərrüfatı istehsalının dinamikası göstərir ki, tədqiqatın aparıldığı illərdə əksər məhsul növlərində artım, ərzaq bazarında pərakəndə ticarət dövriyyəsinin artımında özünü göstərmişdir. Nəticədə ticarət dövriyyəsinin fiziki həcm indeksində də dinamik artım qeydə alınmışdır. Bunlar təbii olaraq ərzaq məhsullarının istehlakına müsbət təsir etmişdir. Buna baxmayaraq yerli kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsi bəzi məhsullar üzrə qənaətbəxş deyildir. Bu isə idxal məhsullarının ərzaq bazarında artmasına, idxaldan asılılıq səviyyəsinin yüksəlməsinə səbəb olmaqla, ərzaq təhlükəsizliyinin təmin olunmasında müəyyən problemlərə gətirib çıxarır.

4. Ərzaq təhlükəsizliyi, ərzaq müstəqilliyi və əhalinin bütün kateqoriyalarının minimum istehlak səbəti daxilində qida ilə sabit şəkildə təmin edilməsi kimi başa düşülür. Ərzaq müstəqilliyini təmin etmək üçün ən vacib şərt qidanın iqtisadi cəhətdən əlçatanlığı və vahid iqtisadi məkan çərçivəsində əhalinin yerli istehsal hesabına ərzaqla təmin edilməsinin rasional birləşməsidir. Ərzaq müstəqilliyi aşağıdakılarla xarakterizə olunur: inkişaf imkanları baxımından spesifik xüsusiyyətlər, aqrar istehsalının və ərzaq bazarının vəziyyəti; əhalinin gəlir səviyyəsi və ərzaq məhsullarının qiymətləri; ərzaqla özünütəminetmə səviyyəsi; istehlak xüsusiyyətləri nəzərə alınmaqla həm rasional, həm də minimum qidalanma səviyyələri baxımından əhalinin əsas məhsullara olan tələbatının ödənmə səviyyəsi; ərzaq ehtiyat

5. Ərzaq bazarının fəaliyyəti ilə bağlı aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatı məhsullarının satış həcminin, formasının və kanallarının inkişafı bazarın ümumi vəziyyəti ilə müəyyən olunur. Ona görə də kənd təsərrüfatı istehsalçıları bazardakı dəyişiklikləri mütəmadi olaraq izləməli, ərzaq ehtiyatlarının formalaşdırılması imkanlarını, müəyyən məhsul növləri üçün özünütəminetmə səviyyəsini,

müəyyən növ məhsulların ixrac edilməsinin mümkünlüyünü və imkanlarını qiymətləndirməyi bacarmalıdır. Bunlar, qeyd edilən məsələlərdə dövlətin rolunu, o cümlədən yerli istehsala dəstəyin və bazarın tənzimlənməsinin zəruriliyini əhəmiyyətli şəkildə ortaya qoyur.

6. Araşdırmalar göstərir ki, ərzaq bazarının normal fəaliyyəti üçün onun bütün komponentlərinin optimal və qarşılıqlı əlaqəsi zəruridir. Eyni zamanda ərzaq bazarının səmərəli inkişafı, onun tənzimlənməsi və bazar institutlarının fəaliyyəti olmadan mümkün deyil. Bunlar ilk növbədə:

- istənilən vaxt bazarda tələb və təklif balansının təmin edilməsinə;
- bütün bazar iştirakçıları, o cümlədən xammal istehsalçıları, emal müəssisələri, xammal və hazır məhsul idxalçıları, topdansatış ticarətçiləri arasında iqtisadi paritetin təmin edilməsinə;
-ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə istiqamətlənir.

7. Ərzaq bazarlarının tənzimlənməsi problemlərinin aktuallığı kənd təsərrüfatının geniş ərazisi, təbii və iqlim şəraitindəki fərq, iqtisadi, demoqrafik vəziyyət kimi mühüm amillərlə əlaqədardır. Belə şəraitdə tənzimləyici tədbirlər ilk olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının, qida emalı müəssisələrinin, satıcıların və istehlakçıların maraqlarının təmin edilməsinə yönəldilməlidir.

8. Məlum olduğu kimi kənd təsərrüfatı məhsulları istehsalçılarının ərzaq bazarındakı vəziyyətin dəyişməsinə reaksiya vermə qabiliyyəti obyektiv olaraq məhduddur, çünki bioloji olaraq istehsal dövrlərinin uzunluğunun səbəb olduğu məlum vaxt gecikməsi qaçılmazdır. Kənd təsərrüfatı istehsalını tez bir zamanda başa çatdırmaq və ya müddəti dəyişdirmək mümkün deyil. Eyni zamanda ərzaq məhsullarının tədarükünü aşağıdakı şəkildə dəyişdirmək olar:

- tələbatın stimullaşdırılması;
- satılan ərzaq məhsullarının keyfiyyətinə nəzarətin gücləndirilməsi;
- yerli ərzaq məhsullarının bazarda payının artırılması;
- bazarda kənd təsərrüfatı xammalı və ərzaq məhsullarının tədarükündə mövsümi dalğalanmaların yumşaldılması;
- ərzaq məhsullarının ixracı üçün əlverişli şəraitin yaradılması.

9. Kənd təsərrüfatı məhsulları istehsalçılarının ərzaq bazarındakı dəyişkən şərtlərdə tələbi öyrənmək üçün imkanlarının məhdudluğu dövlət tərəfindən yerli istehsalçılara dəstək tədbirlərinin həyata keçirilməsinin zəruriliyini göstərir. Bu siyasət bütün mülkiyyət və idarəetmə formalarının inkişafı üçün bərabər şəraitin yaradılmasını, mülkiyyət hüquqlarının qorunmasını, effektiv antiinhisar siyasətini və aqrar sahibkarlıq üçün stimullaşdırıcı mexanizmləri əhatə edir. Dəstək tədbirləri kimi yerli istehsalıçıların səmərəli fəaliyyəti üçün əlverişli makroiqtisadi şərtlərin yaradılması da vacibdir: tələbin stimullaşdırılması, effektiv proteksionizm siyasəti, iqtisadiyyatın real və maliyyə sektorları arasında qarşılıqlı əlaqənin təmin edilməsi, innovasiyalı inkişafın stimullaşdırılması və təşviqi və s.

10. Ərzaq təhlükəsizliyində və əhalinin yüksək keyfiyyətli qida məhsulları ilə təmin olunmasında iştirak edən subyektlərinin, o cümlədən ərzaq bazarının təhlükəsizliyi və yerli istehsalın qorunması mütləq nəzərə alınmalıdır. Müasir bazar münasibətlərində vacib bir məqam yerli istehsalçılara münasibətdə proteksionizmdir. Yerli istehsalçılar qlobal və daxili ərzaq bazarında rəqabət apara bilmədikdə həm bazarın idxaldan asılılığı güclənir, həm də istehsalçıların geniş təkrar istehsal imkanları məhdudlaşır. Belə şəraitdə geniş mənada istehsalçıya dəstəyin (subsidiyalar, güzəştli kreditlər və s.) genişləndirilməsi, dar mənada ərzaq bazarına əmtəə və satınalma müdaxilələri, istehsal və satış üçün daxili kvotalar, istehlaka subsidiya daxil olmaqla qiymət tənzimləməsi tələb olunur. Qiymətlərdəki uyğunsuzluğu aradan qaldırmaq üçün dövlət qiymətlərin monitorinqi əsasında iqtisadi tədbirlər görür (zəmanətli alış qiymətlərinin təyin edilməsi, avadanlıq və maddi ehtiyatların əldə edilməsindəki qeyri-mütənasibliklərin aradan qaldırılması, qida bazarında girov əməliyyatları və s.).

11. Effektiv qiymət siyasəti ərzaq bazarının davamlı fəaliyyəti üçün əsasdır. Araşdırmalar göstərir ki, son illər ərzaq məhsullarının, eləcə də kənd təsərrüfatında istifadə olunan sənaye məhsullarının qiymətində dinamik artım baş vermişdir. Əksər hallarda qiymətlərin müəyyən edilməsindəki problemlər ümumən bazarda rəqabətin məhdudlaşması ilə əlaqədardır. Bu, həm hökumətin əmtəə istehsalçılarının gəlirlərini əsasən bazar mexanizmi vasitəsi ilə tənzimləməyə yönəlmiş

siyasətinə, həm də dövlət dəstəyindən asılı olaraq infrastrukturun inkişafına uyğun gəlir.

12. Ərzaq bazarının mövcud infrastrukturunun çatışmazlıqlarına aşağıdakıları daxil etmək olar: satış bazarı şəbəkəsinin, ticarət və satınalma sisteminin lazımi səviyyədə inkişaf etməməsi; dövlət satınalmaları, əmtəə və satınalma müdaxilələrinin aparılması üçün təsirli bir mexanizmin olmaması; bazar infrastrukturunun formalaşdırılması prosesinin əlaqələndirilməsinin və tənzimlənməsinin qeyri-qənaətbəxş olması; infrastrukturun informasiya komponentinin zəif inkişafı; əmtəə istehsalçılarının əksəriyyətində müasir informasiya təminatı sisteminin olmaması; aqrar-sənaye sahələri və satış prosesi iştirakçıları arasında qarşılıqlı əlaqənin yeni formalarının zəif inkişafı və s. Bu formalardan biri məlumat və məsləhət xidmətidir. Beynəlxalq təcrübənin göstərdiyi kimi, məlumat və məsləhət xidməti kənd təsərrüfatı məhsulları bazarında müsbət dəyişikliklərə səbəb olmaqla qida zəncirinin formalaşmasına əhəmiyyətli şəkildə təsir göstərir.

13. Kənd təsərrüfatında ərzaq məhsulları istehsalının əsas problemlərindən biri istehsalını zəruri maddi-texniki resurslarla tam şəkildə təmin edilməsi və innovasiyaların istehsalatda tətbiqinin genişlənməsi ilə bağlıdır. Bu istiqamətdə əsas tədbirlərə daxildir: kənd təsərrüfatı müəssisələrinin icarə ödənişlərinin müəyyən edilmiş hissəsi üçün kompensasiya proqramının qəbul edilməsi; müasir avadanlıqların, texnologiyaların, damazlıq heyvandarlığın idxalına maliyyə dəstəyi; elmi araşdırmaların büdcə maliyyələşdirilməsinin genişlənməsi və onların kənd təsərrüfatı istehsalında tətbiqi təcrübəsinin təşviqi; bank krediti üzrə faiz dərəcəsinin və onun dəyərinin müəyyən hissəsinin ödənilməsi üçün proqramların qəbul edilməsi və hazırlanması.

14. Ərzaq bazarının inkişafında aqrar sahədə fəaliyyət göstərən müəssisə və təşkilatlarının fəaliyyətinin səmərəliliyini artırmaq xüsusi aktuallıq kəsb edir. Bu, marketinq fəaliyyətinin sosial-iqtisadi əsaslarıdır və öz növbəsində bazar, marketinq üçün iqtisadi əsas rolunu oynayır. Marketinq, bazar subyektlərinin fəaliyyətinin səmərəliliyinin artırılması vasitəsi olmaqla aşağıdakı məsələləri əlaqələndirməlidir: istehlakçıların ehtiyacları baxımından daimi öyrənilməsi sayəsində mümkün olan tələbat; tələbatın idarə edilməsi və istehlakçıların təklif olunan məhsulları almasının stimullaşdırılması; məhsulun funksional

xüsusiyyətlər, təhlükəsizlik, keyfiyyətli xidmət və s. baxımından tələbatı ödəməsi.

15. Ərzaq bazarlarında marketinq fəaliyyəti kənd təsərrüfatı məhsulları, xammal və ərzaq məhsullarının satış sistemlərinin formalaşması və inkişaf etdirilməsi yollarını müəyyən etməyə imkan verir. Marketinq sistemlərinin qurulmasında əmtəə istehsalçılarının və istehlakçıların müəyyən kateqoriyalarının xüsusiyyətləri ilə əlaqəli olan fəaliyyətlər nəzərə alınmalıdır. Çünki ərzaq bazarında müxtəlif marketinq sistemlərinin formalaşması rəqabət mühitinin qorunmasına da kömək edir.

Ümumiyyətlə, ərzaq bazarında marketinq fəaliyyətinin effektivliyi üç qrup göstəricilərlə xarakterizə olunur: müəyyən məhsul növləri və ya çeşidi üçün marketinq kompleksinin səmərəliliyinin göstəriciləri; marketinq xidmətinin təşkilinin və fəaliyyətinin göstəriciləri; marketinq idarəetmə sisteminin effektivliyinin göstəriciləri. Ərzaq bazarının inkişafının vacib komponenti ərzaq təminatının ödənilməsi olduğundan marketinq fəaliyyətində məhz yerli istehsalın artırılması hesabına bazarda tələb-təklif tarzlığının təmin edilməsi əsas hədəflərdən hesab olunur.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1. Əlifov V.Y.Ərzaq bazarının kənd təsərrüfatı məhsulları ilə təminatında ixtsaslaşmanın rolu // ADAU- da keçirilən ümumi respublikası elmi- praktiki konfrans .-Gəncə:-25 may,- 2012,- s.91-93.

2. Əlifov V.Y. Aqrar sahənin davamlı inkişafının əhalinin ərzaqla təminatında rolu // Doktorant və gənc tədqiqatçıların XVII Respublika elmi- praktiki konfransın materialları.Bakı: 18-19 noyabr, - 2013, -I c.,-s. 218-219.

3. Алифов В.Я. Динамика производства селъскохозяйственной продукции в Азербайджане / Полтавская державная аграрно академия. Полтава:-2013,- 1(6),- т. 2 ,-с. 77-80.

4. Əlifov V.Y.Ərzaq bazarının formalaşmasında kənd təsərrüfatı məhsulları istehsalının rolu / Azərbaycan Kooperasiya Universiteti. Kooperasiya elmi nəzəri jurnal -2013.-№ 1(28), - s.41-45.

5. Əlifov V.Y,Yusibov M.F.Əhalinin ərzaq məhsulları ilə təminatının mövcud vəziyyəti və bu sahədə qarşıda duran vəzifələr //

ADAU və Azərbaycan İqtisadçılar İttifaqı ilə birlikdə keçirilən elmi-praktiki konfrans.- Gəncə:- 29- 30 may,- 2014,-s.135-137.

6. Əlifov Y.F.Ərzaq məhsullarının idxal və ixracının ərzaq bazarının formalaşmasında rolu / Ş.Ə.Vəliyev,V.Y.Əlifov // ADAU-nun elmi əsərləri Gəncə:- 2015.- № 3 , -s. 110-112.

7. Əlifov.V.Y. Ərzaq bazarının tənzimlənməsinin zəruriliyi və istiqamətləri / Azərbaycan Kooperasiya Universiteti. Kooperasiya elmi praktiki jurnal.Bakı: -2017. -№ 4 (47) ,- s.164-171.

8. Əlifov V.Y.Ərzaq bazarının tədqiqinin nəzəri- metodoloji məsələləri / ADAU-nun elmi əsərləri, -Gəncə:-2018.-№1, -s.136-139.

9. Əlifov Y.F.Müasir dövrdə aqrar sahənin inkişafının zəruriliyi və üstünlükləri / V.Y.Əlifov ,T.V.İsmayıiova //.ADAU- nun elmi əsərləri,- Gəncə: -2018,- № 3 ,- s. 138-141.

10. ƏlifovY.F.,Vəliyev Ş.Ə.,Əlifov V.Y.Aqrar sahədə istehsalın strukturununu modernləşdirilməinin mahiyyətinə dair nəzəri baxışlar // GDU Beynəlxalq elmi konfrans. Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri-Gəncə:- 04-05 may,- 2018,- IV hissə,- s.119-122.

11. Əlifov Y.F.Kiçik sahibkarlıq subyektlərinin əsas iqtisadi göstəricilərinin dinamikası / V.Y.Əlifov ,T.V.İsmayıiova // ADAU-nun elmi əsərləri, -Gəncə:- 2019,- № 3,- s.124-127.

12. Əlifov Y.F.,Əlifov V.Y.,İsmayılova T.V.Ərzaq bazarında azad rəqabət mühitinin formalaşdırılmasının zəruriliyi //GDU- da müasir təbiət və iqtiad elmlərinin aktual problemlərinə dair beynəlxalq elmi konfrans,-Gəncə:- 03- 04 may,- 2019,-V hissə, - s. 126- 129.

13. Əlifov V.Y.Ərzaq bazarının fəaliyyətində yerli istehsalın əhəmiyyəti // ADAU, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Standard Sığorta şirkəti ilə birlikdə keçirilən elmi-praktiki konfrans,-Gəncə:- 15 mart 2019,- s.115-117.

14. Алифов В.Я. Основные аспекты и условия механизма обеспечения продовольственной безопасности // Proceedıngs Of X Internatıonal Scıentıfıc And Praktıcal Conference, -London,United Kingdom:- 5-7 may 2021,- s. 257- 260.

15. ƏlifovV.Y.Kənd təsərrufatında ərzaq məhsulları istehsalının stimullaşdırılması / AzTU-nun İnnovasiyalı iqtisadiyyat və menecment jurnalı -Gəncə:-2021.- № 2 (6),-s.4-10.

Dissertasiyanın müdafiəsi “11” may 2022-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Atatürk prospekti 450, AZ 2000, Gəncə şəhəri, Azərbaycan

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 11 aprel 2022-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.04.2022
Kağızın formatı: (210x297) ¼
Həcm: 47571 işarə
Tiraj: 100